Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının

# 2013-cü il fəaliyyəti haqqında

# H E S A B A T

**Bakı 2013**

## Giriş

Azərbaycanda dövlət və vətəndaş cəmiyyəti qurumları arasında münasibətlər uğurla inkişaf edərək əməkdaşlıq və tərəfdaşlıq mərhələsinə qədər yüksəlmişdir. Dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında müasir münasibətlər modelinin formalaşdırılması, sabit və effektiv tərəfdaşlıq sisteminin yaradılması Şuranın üzərinə düşən əsas vəzifələrdən biridir. Bu istiqamətdə Şura bir sıra məqsədyönlü tədbirlər həyata keçirmişdir. Ayrı-ayrı dövlət qurumlarının nəzdində milli QHT-lərdən ibarət ictimai şuraların yaradılması dövlət qurumlarının işində şəffaflığın artırılmasında, korrupsiya ilə mübarizənin effektiv təşkilində və qəbul olunan qərarlarda vətəndaş iştirakçılığının təmin edilməsində böyük rol oynayır.

Ölkəmizin getdikcə artan siyasi nüfuzu və iqtisadi qüdrəti vətəndaş cəmiyyəti institutlarının da fəaliyyətinə böyük vüsət verir. Hazırda vətəndaş cəmiyyəti özünün dinamik inkişaf mərhələsini yaşayır. Artıq altıncı ildir ki, ölkə QHT-lərinin layihələrinin icrası üçün dövlət büdcəsindən maliyyə ayrılır və bu qurumların bütün potensialı cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edən ictimai, sosial, mədəni məsələlərin həllinə yönəldilir. Azərbaycan QHT-lərinin fəaliyyət imkanları genişlənir, onların beynəlxalq əməkdaşlıq əlaqələri möhkəmlənməkdə davam edir.

2013-cü ildə Şuranın fəaliyyəti mühüm hadisələrlə zəngin olmuşdur. Belə ki, "Azərbaycan Respublikası Prezidenti yanında Qeyri–Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 01 may 2013-cü il tarixli 2883 nömrəli Sərəncamı Şuranın fəaliyyətində yeni bir mərhələnin əsasını qoymuşdur. Şura ölkəmizin gənc milli donor institutu kimi QHT sektorunun tarixində ilk dəfə olaraq xarici QHT-lər üçün qrant müsabiqəsi elan etmişdir.

Konsepsiyada və Şuranın əsasnaməsində təsbit edilmiş dövlət dəstəyinin əsas prinsip və formalarına uyğun olaraq, 2013-ci ildə qeyri-hökumət təşkilatlarının ən müxtəlif təşəbbüsləri dəstəklənmiş və ölkədə vətəndaş cəmiyyətinin inkişafı məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir.

# Dövlət dəstəyinin əsas istiqamətləri üzrə QHT-lərə göstərilən xidmətlər və həyata keçirilən tədbirlər

- ## Məlumat dəstəyi

Şuranın, eləcə də ölkə QHT-lərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmaq, qeyri-hökumət təşkilatlarının inkişaf dinamikasını, yerinə yetirilən layihələrin icra vəziyyətini və nəticələrini işıqlandırmaq məqsədilə Şuranın aylıq "Vətəndaş cəmiyyəti" jurnalının nəşri uğurla davam etdirilmişdir. 2013-cü ildə jurnalın 12 nömrəsi çap olunmuşdur. Jurnalın bu saylarında ölkə QHT-lərinin fəaliyyəti izlənmiş, 600-ə yaxın QHT-nin həyata keçirdiyi layihə və proqramlar haqqında müfəssəl informasiya, məqalə və müsahibələr verilmiş, eyni zamanda ictimai fəaliyyətlə bağlı digər mövzular işıqlandırılmışdır.

QHT sektoruna onlayn informasiya dəstəyinin verilməsi məqsədilə Şuranın hər gün yenilənən www.qhtxeber.az saytı da il ərzində fəaliyyətini davam etdirmişdir. Saytda ölkənin ictimai sektoruna aid praktiki və nəzəri məsələlər işıqlandırılmışdır. Saytda QHT-lərin fəaliyyətini əks etdirən bütün növ xəbərlər, hesabatlar yayımlanmış, QHT qanunvericiliyi, donorların elanları, təşkilatların koalisiya və beynəlxalq əməkdaşlığı haqqında materiallar ictimai

müzakirəyə çıxarılmışdır. Eyni zamanda Şuranın fəaliyyəti haqqında ətraflı məlumat əldə etmək üçün təşkilatın Azərbaycan və ingilis dillərində rəsmi saytı (www.cssn.gov.az) da fəaliyyət göstərir. İl ərzində Şuranın fəaliyyəti və keçirdiyi ayrı-ayrı tədbirlər haqqında mətbuata 90-a yaxın press-reliz göndərilmişdir.

Şuranın dəstəklədiyi layihələrdə toxunulan problemlərin hərtərəfli işıqlandırılması və bunlarla bağlı cəmiyyətin daha geniş miqyasda məlumatlandırılması işini təşkil etmək məqsədilə Xəzər televiziyası ilə birgə “Cəmiyyət” adlı maarifləndirici veriliş hazırlanması barədə razılıq əldə etmişdir. İlk buraxılışı noyabrın 1-də efirə getmiş bu proqram hər həftənin beşinci günü, saat 23:00-da yayımlanır. Bu veriliş vasitəsi ilə vətəndaşların hüquq və mənafelərinin qorunması istiqamətində QHT-lərin həyata keçirdiyi layihələr və ümumilikdə vətəndaşları düşündürən, ictimai əhəmiyyət kəsb edən müxtəlif mövzular ekspertlərin iştirakı ilə müzakirəyə çıxarılır. 2013-cü ildə “Cəmiyyət” verilişinin 9 buraxılışı efirə gedib.

## • Konsultativ dəstək

Şura Katibliyi 2013-ci ilin 1-ci maliyyə yardımı müsabiqəsi çərçivəsində dəstəklənən layihələrin həyata keçirilməsinin səmərəliliyinin artırılması məqsədilə QHT rəhbərləri və mühasibləri üçün layihələrin idarə olunması və hesabatların təqdim edilməsi mövzularında məlumatlandırma sessiyaları keçirmişdir. Aprelin1-dən-8-dək davam edən bu məlumatlandırma sessiyalarında Şuranın maliyyələşdirildiyi bütün istiqamətlərə dair mövzular əhatə edilmişdir. Şura katibliyinin əməkdaşları sessiyalarda layihələrin idarə edilməsi, hesabatlılıq, tədbirlərin səmərəliliyinin artırılması haqqında QHT nümayəndələrinə lazımi təlimatlar vermişlər.

Şura Katibliyi fevral ayının 19-dan 22-dək Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq 2012-ci il üçün maliyyə hesabatlarının hazırlanması qaydaları ilə bağlı Quba, Qəbələ, Şirvan, Mingəçevir və Şəmkir şəhərlərinə yerli QHT-lərə konsultativ və praktik xidmətlər təşkil etmişdir. Maliyyə Nazirliyinə illik maliyyə hesabatlarının tərtib edilməsinə kömək məqsədilə QHT mühasibləri üçün Mili QHT Forumunun Regional Resurs və Təlim Mərkəzləri təlimlər təşkil edilmiş və onlara praktik yardımlar göstərilmişdir. Ümumilikdə 123 QHT-nin iştirak etdiyi təlimin yekununda Milli Mühasibat Uçotu Standartlarına uyğun mühasibat uçotunun elektron formada aparılması üzrə 2012-2013-cü illərdə Şuranın maliyyə dəstəyi ilə hazırlanmış “Günəş” elektron mühasibat proqramının lesenziyalı variantı QHT-lərə pulsuz paylanmışdır. Eyni zamanda fərdi qaydada müraciət etmiş 30-dan çox QHT-nin maliyyə hesabatlarının tərtibinə də köməklik göstərilmişdir. Həmin dövrdə müxtəlif səbəblərdən RRTM-lərin ofislərindəki təlimlərə qatıla bilməyən QHT-lərə başqa günlərdə köməklik göstərilməsi üçün hər bir RRTM-in ofisində bu iş üzrə mütəxəssis ayrılmış və o lazımı təlimat materialları ilə təchiz olunmuşdur. Şuranın ofisində fevral ayının 25-dən başlayaraq QHT-lərə illik maliyyə hesabatlarının tərtib edilməsinə yardım etmək üçün bu sahədə çalışan Katiblik əməkdaşlarının növbətçilik qrafiki üzrə xidməti təşkil olunmuşdur.

Şura 2013-cü ilin 2-ci rübündən başlayaraq QHT-lər üçün elektron xidmətlərin təşkilinə başlamışdır. İlk dəfə olaraq tətbiq olunan elektron xidmətlər haqqında və Şuranın 2-ci maliyyə yardımı müsabiqəsinə ərizələrin təqdim olunma qaydaları barədə QHT nümayəndələrini məlumatlandırmaq məqsədilə 31 may 2013-cü ildə Şuranın ofisində QHT-lər üçün məlumatlandırma sessiyası keçirilib. Sessiyada Şuranın elan edilən sonuncu maliyyə müsabiqəsinin mövzusu və şərtləri haqqında iştirakçılara məlumat verilib. Bundan sonra layihə və hesabatların Şurada yalnız elektron formada qəbul ediləcəyi və bununla bağlı yeni model və proqramların tətbiq olunacağı QHT nümayəndələrinin diqqətinə çatdırılıb. Şura tərəfindən ilk dəfə olaraq tətbiq olunan elektron ərizənin hazırlanma mexanizmi ilə bağlı sessiyada geniş məlumat verilib. Müsabiqə elanının mətni, şərtləri və qaydaları haqqında Şuranın hər üç saytında (www.cssn.gov.az , www.qhtxeber.az, www.e-qht.az) məlumatlar yerləşdirilib.

Şura region QHT-lərinə maliyyə hesabatlarının elektron qəbulunun həyata keçirilməsinə kömkəklik məqsədilə Şura 1 iyul 2013-cü ildən etibarən region QHT-ləri üçün bu sahəyə həsr edilmiş təlimlərə başlamışdır. Belə ki, iyulun 1-dən başlayaraq Şirvan, Lənkəran, Mingəçevir, Gəncə, Şəki, Quba və Qəbələ şəhərlərində yerli QHT-lərə təlimlər keçirilib və onlara bu sahədə praktik yardımlar göstərilib.

Şuranın tətbiq etdiyi elektron xidmətlərlə əlaqədar il ərzində Şura katibliyinə müraciət etmiş QHT təmsilçilərinə konsultativ xidmətlər və praktikköməkliklər göstərilmişdir.

- ## Metodiki dəstək

Şuranın maliyyə yardımı ilə layihələr həyata keçirən QHT-lərin hesabatlıq məsələlərində bir sıra dəyişikliklər həyata keçirilmiş, eyni zamanda hesabatların elektron qaydada qəbulunun həyata keçirilməsi üçün xüsusi proqram hazırlanmışdır. Bu sahədə QHT-ləri məlumatlandırmaq məqsədilə hesabatların təqdim edilməsi və qəbulu qaydalarına dair metodiki göstəriş hazırlanmışdır. Bu sahədə QHT-ləri məlumatlandırmaq məqsədilə hesabatların təqdim edilməsi və qəbulu qaydalarına dair "E-QHT elektron hesabat proqram təminatı" adlı metodiki göstəriş hazırlanaraq çap edilmiş və QHT-lər arasına paylanmışdır.

- ## Təşkilati-texniki dəstək

QHT fəaliyyətinin qanunvericiliyə və beynəlxalq standartlara uyğun şəkildə qurulması, QHT təmsilçilərinin idarəçilik qabiliyyətinin artırılması, QHT-lərdə kargüzarlıq işlərinin və mühasibat uçotunun qanunun tələblərinə uyğun aparılması, bu sahədə milli QHT-lərin bilik və bacarıqlarının artırılması Şuranın qarşısında duran başlıca vəzifələrdən biridir. Bu məqsədlə il ərzində QHT sektorunun gələcək inkişafına hesablanmış bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Şura 2013-cü ildən etibarən maliyyə hesabatlarının elektron qaydada qəbuluna başlamışdır. Şuranın 13 mart 2013-cü il tarixli iclasının qərarına əsasən layihənin icrası barədə təqdim edilən maliyyə hesabatı formaları sadələşdirilmiş və onların sayı sayı 9-dan 2-yə endirilmişdir. Şura Katibliyi QHT rəhbərlərinə yeni qaydalar barədə məlumatlar verilmişdir.

2013-cü ilin "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə əlaqədar Şura elektron müraciət və hesabat qəbulu proqramları hazırlamışdır. Bu, ölkəmizdə vətəndaş cəmiyyəti sektorunda ilk dəfə olaraq Şura tərəfindən tətbiq olunur. Belə ki, 2013-cü ilin müsabiqə qalibi olan QHT-lər maliyyə hesabatını elektron qaydada təqdim etməyə başlamışlar. Bununla bağlı 13 may 2013-ci ildə Şurada proqram təminatının təqdimatı həyata keçirilmişdir. Hazırlanmış proqrama əsasən hər bir təşkilata proqramdan istifadə etmək üçün kod, şifrə və parol verilmişdir. Eyni zamanda 2013-cü ildə Şuranın layihə müsabiqəsində qalib olmayan QHT-lər də lazımi məlumatları təqdim etməklə kod, şifrə və parol almaq üçün müraciət edə bilərlər. Bu məlumatlar müqavilə əsasında xüsusi zərfdə yerləşdirilməklə təşkilatın rəhbərinə və yaxud onu əvəz edən səlahiyyətli şəxsə (etibarnamə əsasında) təqdim edilir. May ayının sonunda proqram istismara qəbul edilmiş, iyundan isə ondan istifadə qaydalarının mənimsənilməsi üçün QHT mühasiblərinin maarifləndirilməsi işinə başlanmışdır.

Şuranın tətbiq etdiyi yeni elektron proqramların istifadəsində müəyyən çətinliklərin olduğu barədə QHT-lərdən Şura Katibliyinə edilən müraciətləri nəzərə alaraq, avqust ayından etibarən layihələrin və hesabatların elektron qaydada qəbulu proqramından istifadə qaydaları haqqında təlimlərə start verilmişdir. Layihə Bakı, Sumqayıt və ölkənin regionlarında (Qəbələ , Şamaxı, Quba, Lənkəran, Şəki, Şirvan, Mingəçevir, Şəmkir, İmişli, Gəncə) fəaliyyət göstərən QHT-lərin 500 nümayəndəsini əhatə etmişdir.

"İnformasiya-kommunikasiya texnologiyaları ili" çərçivəsində Şuranın həyata keçirməyə başladığı elektron kargüzarlıq proqramı üzərində iş başa çatdırılmışdır. 30 sentyabr 2013-cü ildə

kargüzarlığının elektron qaydada qurulması üçün CASTEL şirkəti hazırlanmış proqramın təqdimatı keçirilib. Elektron kargüzarlıq Şuraya daxil olan sənədlərin qeydiyyatını, dövriyyəsini, onların icra vəziyyətini və arxivləşməsini təmin edəcək.

22 noyabr 2013-cü ildə Milli Məclis Şura sədri Azay Quliyevin rəhbərliyi ilə hazırlanan "İctimai iştirakçılıq" haqqında qanun layihəsini üçüncü oxunuşda qəbul edib. Qanunun məqsədi Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququnun ictimai iştirakçılıq formasında gerçəkləşdirilməsi üçün təminatlar yaratmaqdır. 6 fəsil, 21 maddədən ibarət qanun layihəsində ictimai iştirakçılığın təşkilati-hüquqi formaları təsbit olunub. Bunlar İctimai Şura, ictimai müzakirə, ictimai dinləmə, ictimai rəyin öyrənilməsi, ictimai ekspertiza və yazılı məsləhətləşmədir.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (2011-2015-ci illər)" təsdiq edilməsi haqında Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli 1578 nömrəli Sərəncamında bir sıra məsələlərin həlli Şuranın üzərinə vəzifə olaraq qoyulmuşdur. Həmin məsələlər sırasına QHT-lərin müsbət təcrübəsinin yayılması və region QHT-lərinin inkişaf etdirilməsi kimi müddəalar daxildir. Dövlət Proqramının tələblərindən irəli gələrək, Şura QHT sektoruna dövlət dəstəyi, dövlətimiz və cəmiyyətimiz üçün əhəmiyyət kəsb edən sahələr üzrə QHT-lərin həyata keçirdiyi layihələr barədə ictimaiyyəti məlumatlandırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. 2013-cü il noyabrında Ağdaş, Tovuz, Qusar, Astara, Goranboy və digər şəhərlərdə yerli QHT və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbirlər keçirilmişdir.

2013-cü ilin noyabr ayında Mingəçevir, Şəmkir, Şirvan, Quba və Qəbələ şəhərlərində yerli və ətraf rayonların QHT-ləri üçün Şuranın 2014-cü il maliyyə yardımı müsabiqəsinin mövzuları ilə bağlı ictimai dinləmələr keçirilmişdir. Noyabr ayında həmçinin eyni formatda layihələrin və hesabatların Şuraya təqdim edilməsi üçün elektron proqramlardan istifadə qaydaları barədə region QHT-ləri üçün təlimlər keçirilmiş və Şuranın 2013-cü ildə regionlarda icra edilmiş layihələrin yekunları müzakirə edilmişdir. Keçirilən tədbirlərdə 300-ə yaxın QHT nümayəndələri iştirak etmişdir.

## • Maliyyə dəstəyi

2013-cü ilin birinci maliyyə yardımı müsabiqəsi nəticələrinin müzakirəsinə Şuranın 15 mart 2013-cü ildə keçirilən iclasında yekun vurulmuşdur. Müsabiqəyə 512 QHT-dən layihə təklifi daxil olub, onlardan 80-ə yaxını Şuranın sənədləşmə ilə bağlı tələblərinə cavab vermədiyi üçün ekspertiza mərhələsinə buraxılmadan müsabiqədən uzaqlaşdırılıb. Ekspertiza mərhələsində isə hər layihə iki müstəqil ekspert tərəfindən qiymətləndirilib. Şura əvvəlki iclaslarda dəstəklənməsi qərara alınmış layihələr barədə büdcə komissiyasının təqdimatlarını, ekspert qiymətləndirməsini və təşkilatlar haqqında Katibliyin arayışlarını nəzərə alaraq, 343 QHT-nin layihəsinin maliyyələşdirilməsi haqda yekun qərar qəbul etmişdir. Siyahı Şuranın www.qhtxeber.az və www.cssn.gov.az saytlarında dərc edilmişdir.

Növbəti maliyyə yardımı müsabiqəsi ilə bağlı məsələlər Şuranın 17 may 2013-cü il tarixli iclasında müzakirə olunmuşdur. Bir sıra yeniliklər tətbiq edildiyi bu müsabiqədə yerli QHT-lərlə yanaşı xarici ölkələrin QHT-lərinin də iştirakı nəzərdə tutulmuşdur. 20 may 2013-cü ildə elan edilən müsabiqədə ərizələrin qəbulu elektron formada həyata keçirilmiş və bununla əlaqədar bütün məlumatlar Şuranın elektron xidmətlər üçün yaradılmış www.e-qht.az saytında yerləşdirilmişdir. Bu müsabiqədə ilk dəfə olaraq yerli QHT-lərə koalisiyalar quraraq layihələrini təqdim etmək imkanı da yaradılmışdır. Şuranın ikinci maliyyə yardımı müsabiqəsində 230 QHT-nin müraciəti qeydə alınmışdır. Şuraya daxil olan layihə mövzuları üzrə seleksiya işi həyata keçirilmiş və 97 təşkilatın layihəsinin maliyyələşdirilməsi qərara alınmışdır.

2013-cü ilin birinci maliyyə yardımının istiqamətləri, müsabiqə fondu, maliyyələşən layihələrin sayı barədə məlumatlar aşağıdakı cədvəldə verilmişdir:

| N | Müsabiqənin istiqamətləri | Şuranın ayırdığı məbləğ | Maliyyələşən layihələrin sayı |
|---|---|---|---|
| 1 | İnsan hüquqlarının müdafiəsi və demokratiyanın inkişafı | 394 889,0 | 49 |
| 2 | Azərbaycanın təbliği və ərazi bütövlüyünün bərpası ilə bağlı xarici ölkələrdə tədbirlər | 131 505,0 | 24 |
| 3 | Təhsil və mədəniyyətin inkişafı | 368 600,0 | 60 |
| 4 | İctimai əhəmiyyət kəsb edən məsələlərlə əlaqədar televiziya və radio verilişləri, ictimai müzakirələr və debatlar | 234 466,0 | 25 |
| 5 | Ətraf mühitin mühafizəsi və sağlamlığın qorunması | 123 800,0 | 21 |
| 6 | Qadın, uşaq və ailə məsələləri | 150 701,0 | 25 |
| 7 | Korrupsiya, insan alveri və narkomaniyaya qarşı mübarizə | 157 600,0 | 25 |
| 8 | Region QHT-lərinin təşəbbüsləri | 294 000,0 | 51 |
| 9 | Sosial məsələlər | 305 900,0 | 51 |
| 10 | Azərbaycanda yaşayan xalqların mədəniyyətinin inkişafı | 33 000,0 | 6 |
| 11 | Qaçqın, məcburi köçkün, müharibə əlili və şəhid ailələrinin sosial problemlərinin həllinə dəstək | 153 000,0 | 26 |
| 12 | Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin təşviqi üzrə təşəbbüslərin dəstəklənməsi (koalisiyalar üçün) | 80 000,0 | 2 |
| 13 | 2013-cü ildə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi (koalisiyalar üçün) | 121 000,0 | 3 |
| 14 | 2013-cü ildə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərinin monitorinqi (koalisiyalar üçün) | 81 000,0 | 2 |
| 15 | Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının inkişafına yönəlik təşəbbüslərin dəstəklənməsi | 264 000,0 | 33 |
| 16 | İctimai əhəmiyyətli nəşrlərin dəstəklənməsi | 91 000,0 | 10 |
| 17 | Sosial çarxların hazırlanması və yayımının təşkili | 74 000,0 | 9 |
| 18 | Yeni qəbul olunmuş qanunlarla bağlı əhalinin məlumatlandırılması | 328 000,0 | 38 |
| 19 | QHT-lərin xarici ölkələrdə keçirilən tədbirlərdə iştirakına dəstək | 28 171,0 | 14 |
| | **Cəmi** | **3 414 632,0** | **474** |

2 dekabr 2013-cü ildə Şura QHT-lər üçün 2014-cü il maliyyə müsabiqəsinin şərt və qaydalarını müzakirə edərək 34 mövzunu təsdiq etmiş və layihə təkliflərinin elektron qaydada qəbul edilməsinə başlanmışdır.

**Apelyasiya komissiyası**

Şura tərəfindən maliyyə yardımı müsabiqələrinin nəticələrindən narazı qalan QHT-lərə apelyasiya ərizəsi vermək imkanı yaradılmışdır. Altı QHT apelyasiya şikayəti ilə Şuraya müraciət etmişdir. 30 aprel 2013-cü ildə Şuranın Apelyasiya Komissiyasının iclası keçirilib. İclasda 2013-cü il birinci maliyyə müsabiqəsinin nəticələri ilə razılaşmayan 6 QHT-nin şikayəti araşdırılıb. Komissiyaya müraciət etmiş 6 təşkilatdan 3-ü daha sonra ərizəsini geri götürüb. İclasda iştirak edən 3 QHT-nin şikayətinə baxılmışdır. Onlar aşağıdakı təşkilatlardır:

1.”Eko-Tes” Ekoloji Tədqiqatlar və Maarifçilik İctimai Birliyi
2.”Bizim Şəhər” Sumqayıt Sosial İnkişaf Mərkəzi
3.”Sağlam həyata doğru” Ekoloji İctimai Birliyi

Komissiyaya təqdim olunmuş hər bir layihə yenidən nəzərdən keçirilərək, qarşılıqlı anlaşma və diskussiya şəraitində keçən müzakirələrdə layihələrdə yol verilmiş nöqsanlar QHT rəhbərlərinin nəzərinə çatdırılıb. Komissiya üzvləri hər bir şikayət üzrə ayrılıqda qərar qəbul edib və yuxarıda adı çəkilən 3 QHT-nin təqdim etdiyi layihələrin maliyyələşdirilməməsi haqqında Şuranın əvvəlki qərarı qüvvədə saxlanılıb.

**Xarici QHT-lər üçün müsabiqə 21 may 2013-cü ildə elan edilmişdir**

“Azərbaycan Respublikası Prezidenti yanında Qeyri–Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 01 may 2013-cü il tarixli 2883 nömrəli Sərəncamının I bəndinə uyğun olaraq milli donor institutu kimi Şura ilk dəfə xarici QHT-lər üçün qrant müsabiqəsi elan etmişdir. On beş xarici ölkə (Fransa, Böyük Britaniya, Belçika, Almaniya, Avstriya, Macarıstan, Polşa, Norveç, Rusiya, Türkiyə, ABŞ, Çexiya, Ukrayna, İsveçrə və Litva) QHT-ləri üçün elan olunmuş müsabiqəyə aşağıdakı mövzular daxil edilmişdir:

- Sülh və təhlükəsizliyin möhkəmləndirilməsi və regional münaqişələrin nəticələrinin aradan qaldırılması (Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müstəvisində);
- İnsan hüquq və azadlıqlarının qorunması;
- Ksenofobiya, islamofobiya və irqçilik təzahürlərinə qarşı mübarizə;
- Ölkələr və vətəndaş cəmiyyətləri arasında uğurlu əməkdaşlıq üçün mədəniyyətlərarası dialoqun gücləndirilməsi;
- Gələcəkdə oxşar faciələrin qarşısının alınması məqsədi ilə Xocalı soyqırımı haqda məlumatların Avropa və ABŞ ictimaiyyətinə çatdırılması.

Şuranın xarici ölkə QHT-ləri üçün elan etdiyi maliyyə müsabiqəsinin birinci turu iyulun sonunda başa çatmışdır. Müsabiqəyə ümumilikdə 15 ölkədən 91 layihə daxil olub. Bunlardan 4-ü “İnsan hüquq və azadlıqlarının qorunması”, 6-sı “Gələcəkdə oxşar faciələrin qarşısının alınması məqsədi ilə Xocalı Soyqırımı haqqında məlumatların Avropa və ABŞ ictimaiyyətinə çatdırılması”, 15-i “Ksenofobiya, islamafobiya və irqçilik təzahürlərinə qarşı mübarizə”, 28-i “Sülh və təhlükəsizliyin möhkəmləndirilməsi və regional münaqişələrin nəticələrinin aradan qaldırılması (Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müstəvisində)”, 38-i isə “Ölkələr və vətəndaş cəmiyyətləri arasında uğurlu əməkdaşlıq üçün mədəniyyətlərarası dialoqun gücləndirilməsi” mövzusuna aiddir.

Xarici QHT-lərin müraciətləri Şuranın ekspertləri tərəfindən araşdırıldıqdan sonra 48 layihənin ikinci tura keçməsi məqsədəuyğun sayılmış və həmin təşkilatlara tam layihə təkliflərinin təqdim edilməsi barədə müraciətlər göndərmişdir. Şura tam layihə təkliflərinin qəbulunu avqustun 19-dək həyata keçirmişdir.

23 oktyabr 2013-cü ildə Şuranın xarici ölkələrin QHT-ləri üçün elan etdiyi maliyyə müsabiqəsinə yekun vurmuşdur. Daxil olan tam layihə təklifləri Şuranın və beynəlxalq ekspertlərin iştirakı ilə araşdırılmış və bunlardan 31-i haqqında müsbət rəy bildirilmişdir. Şura bu layihələri müzakirə edərək onların dəstəklənməsini məqsədəuyğun saymış və 31 layihənin maliyələşdirilməsi barədə qərar qəbul etmişdir.

- **Şuranın iclasları**

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamənin 4.7 bəndinə uyğun olaraq, Şura mütəmadi şəkildə öz iclaslarını keçirmişdir. 2013-cü ildə Şuranın 18 iclası olmuşdur. Bu iclaslarda Şuranın fəaliyyətinin səmərəli təşkili, maliyyə yardımı müsabiqələrinin keçirilməsi, müsabiqə nəticələrinin müzakirəsi, Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasından irəli gələn digər məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir.

## Digər tədbirlər

25 yanvar 2013-cü ildə Şura 2012-ci il fəaliyyətinin yekunları haqda hesabat konfransı keçirmişdir. Beynəlxalq Mətbuat Mərkəzində 300-ə yaxın QHT təmsilçisi və media nümayəndələrinin iştirakı ilə keçən konfransda Şuranın maliyyələşdirdiyi layihələrin ictimai aktuallığı, icra keyfiyyətindəki və hesabatlıqdakı müsbət təzahürlər qeyd edilməklə bərabər bu sahədəki çatışmazlıqlar və nöqsanlar da geniş müzakirə olunmuşdur.

06 fevral 2013-cü ildə Şura ölkə QHT-lərini ABŞ Prezidenti Administrasiyasının (Ağ Evin) rəsmi səhifəsində Xocalı qətliamının tanınması, eləcə də Dağlıq Qarabağ və ətraf 7 rayonun erməni hərbi birləşmələri tərəfindən işğalı ilə bağlı yerləşdirilmiş müraciətə səs verməyə çağırdı.

02 aprel 2013-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ABŞ Beynəlxalq İnkişaf Agentliyilə (USAID) birgə "İctimai İştirakçılıq haqqında" qanun layihəsinin ictimai müzakirəsini keçirib. Kempinski-Badamdar hotelində keçən müzakirələrdə çıxış edən millət vəkilləri, beynəlxalq təşkilatların və milli QHT-lərin və digər qurumların nümayəndələri qanun layihəsilə bağlı qeyd, təklif və rəylərini bildiriblər.

16 aprel 2013-ci ildə Şuranın fəaliyyətinin 5 illiyi münasibətilə "Park İnn" hotelində yubiley toplantısı keçirib. Hökumət rəsmiləri, Milli Məclis deputatları, beynəlxalq təşkilatlar, yerli QHT və media təmsilçilərinin qatıldığı tədbirdə Şuranın 5 illik fəaliyyətini əks etdirən kitabın və filmin təqdimatı olub. Mərasimdə Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatlar adından Avropa İttifaqının səfiri Roland Kobia, QHT-lər adından Milli QHT Forumunun prezidenti Rauf Zeyni təbrik nitqi ilə çıxış ediblər.

25 aprel 2013-ci ildə Şurada "Elm haqqında" qanun layihəsinin ictimai müzakirəsi keçirilmişdir. Müzakirədə elm sahəsində fəaliyyət göstərən 27 QHT rəhbəri iştirak etmişdir. Müzakirələrdə çıxış edən QHT rəhbərləri qanun layihəsilə bağlı öz fikirlərini və əlavə təkliflərini səsləndiblər. Layihənin bir daha müzakirədən keçirilməsi, müvafiq rəy və təkliflərin bir həftə

ərzində toplanıb ümumiləşdirilərək Şuraya təqdim edilməsi üçün 7 nəfərdən ibarət redaksiya komissiyası yaradıldı.

Şura sədri Azay Quliyev Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri QHT-lərinin Ankarada keçirilən forumunda türkiyəli həmkarlarından və bütövlükdə iştirakçı ölkələrdən Şuranın başlatdığı "Şuşaya azadlıq!" kampaniyasına dəstək verilməsinin vacibliyini bildirib. Kampaniyaya daha bir dəstək isə Londondan gəlib. 07 may 2013-ci ildə Şuranın www.qhtxeber.az elektron informasiya portalının redaktoru bu kampaniyaya beynəlxalq dəstəyi genişləndirmək üçün Londonda keçirilən aksiyada iştirak edib. İtaliya, Almaniya, İspaniya, Rusiya, Koreya, Yaponiya, İordaniya, Braziliyadan olan onlarla tələbə facebook statuslarında "Şuşanı 1 dəqiqəlik sükutla anaq!" şüarını yaymaqla aksiyaya dəstək olmuşlar.

23 may 2013-cü ildə Şura Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 95 illik yubleyi münasibəti ilə "Park İNN" hotelinin "Dan ulduzu" konfrans zalında elmi-praktik konfrans keçirmişdir. Konfransda məruzəçi qismində çıxış edən Bakı Dövlət Universitetinin dosenti, tarix elmləri üzrə fəlsəfə doktoru Nəsiman Yaqublu, vətəndaş cəmiyyətinin nümayəndələri və digər şəxslər Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi yol və onun təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin həyatında oynadığı rol haqqında geniş məlumat veriblər.

19 iyun 2013-cü ildə Şura və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətəndaş cəmiyyətinin gücləndirilməsində QHT-hökumət tərəfdaşlığı" mövzusunda Gəncədə regional konfrans keçirilib. Konfransda QHT-hökumət əməkdaşlığına aid aktual məsələlər Gəncə şəhər ictimaiyyəti və 15 ətraf rayon QHT-ləri nümayəndələrinin iştirakı ilə müzakirə edilib. Toplantıda Şura və Gəncə Şəhər İcra Hakimiyyəti rəhbərlikləri, hökumət rəsmiləri, yerli və ətraf 15 rayonun QHT təmsilçiləri, eləcə də beynəlxalq təşkilatlar və KİV nümayəndələri iştirak edib.

31 iyul 2013-cü ildə Şurada televiziyaların və Şuranın 2-ci maliyyə yardımı müsabiqəsində layihəsi ikinci mərhələyə keçmiş yerli QHT rəhbərlərinin iştirakı ilə layihələrin effektli icrası haqqında müzakirələr aparılmışdır. Toplantıda Şura sədri tədbirin məqsədinin bəyənilmiş layihə ideyalarının icrasının effektli təşkili, onun miqyasının genişləndirilməsi, qanunlar haqqında ictimai məlumatlandırmanın daha böyük auditoriyanı əhatə etməsi üçün televiziya verilişlərinin hazırlanmasını birgə müzakirə etmək olduğunu bildirdi. Xüsusi ilə yeni qanunların təbliği və sosial çarxların yayımlanması baxımından televiziyaların mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunaraq, televiziyalarla QHT-lərin əməkdaşlığının hər iki tərəf üçün səmərəliliyi, Şuranın QHT-lərlə televiziyalar arasında körpü rolu oynaması və işçi qaydada onlarla danışıqların davam etdirilməsinin vacibliyi bildirilib. QHT təmsilçiləri çıxış edərək, Şuranın təşkil etdiyi müzakirənin mühüm əhəmiyyət daşıdığını və televiziyanın imkanlarından istifadənin layihələrinin səmərəliyini artıracağını vurğuladılar. İctimai Televiziyanın təmsilçisi, eləcə də Xəzər Televiziyası xəbərlər xidmətinin rəhbəri İbrahim Ünlübostan da çıxışlarında vətəndaş cəmiyyəti institutlarının təşəbbüslərini hər zaman dəstəkləməyə və geniş əməkdaşlığa hazır olduqlarını bildirdilər.

19 sentyabr 2013-cü ildə cari ilin birinci maliyyə müsabiqəsi üzrə dəstəklənən layihələrin icra vəziyyətinə həsr olunmuş müşavirə keçirilib. Müşavirədə 343 layihənin icrası ilə əlaqədar mövcud vəziyyət, QHT-lər tərəfindən yol verilən nöqsanlar, qarşıya çıxan çətinliklər, katibliyin əməkdaşlarının peşəkarlıq səviyyəsi və digər məsələlər haqqında Şura rəhbərliyinə ətraflı məlumat verilmişdir.

20 noyabr 2013-cü ildə Şura növbəti ilin maliyyə yardımı müsabiqəsi ilə bağlı QHT-lərin təkliflərini öyrənmək məqsədilə ictimai dinləmələr keçirib. Tədbirdə QHT təmsilçiləri fəaliyyət

göstərdikləri sahələr üzrə mövzu və təkliflər irəli sürüblər. Təkliflər arasında milli maraqların qorunmasında vətəndaş cəmiyyətinin rolunun artırılması, miqrasiya potensialının araşdırılması və qiymətləndirilməsi, Azərbaycan dilinin tətbiqi vəziyyəti, Azərbaycan ərazilərində mədəni abidələrin məhv edilməsi ilə bağlı dünya ictimaiyyətinin daha geniş məlumatlandırılması, milli mənəvi dəyərlərin qorunması, "ideya bazarı" və ya "beyin mərkəzi"nin yaradılması, QHT menecmenti, peşə təhsilinin dəstəklənməsi, sosial medianın inkişafı və digər mövzular olub.

## • QHT-lərin İnkişafı üzrə Milli Fəaliyyət Proqramı

30 yanvar 2013-cü ildə Şura "QHT-lərin İnkişafına dair Milli Fəaliyyət Proqramı"nın ictimai müzakirəsini keçirib. Beynəlxalq Mətbuat Mərkəzində təşkil edilmiş tədbirdə Şura ekspertləri tərəfindən hazırlanan və yaxın 5 ildə ölkə QHT-lərinin bütün istiqamətlər üzrə inkişaf perspektivlərini əks etdirən Proqramda qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi, QHT-lərin təsnifatlaşdırılması və statuslarının müəyyən olunması, QHT-lərin maliyyə dayanıqlığının artırılması, QHT fəaliyyətinin müxtəlif sahələri və QHT-nin idarə olunması üzrə dərsliklərin, metodik vəsaitlərin hazırlanması və başqa vacib məsələlərin həlli ilə bağlı müddəalar geniş müzakirə edilmişdir. Müzakirələrdə çıxış edən QHT rəhbərləri Proqramla bağlı öz fikirlərini bildirərək təkliflər irəli sürmüşlər.

## • Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar beynəlxalq yazı müsabiqəsi

11 fevral 2013-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Şura Rusiya, Gürcüstan, Ukrayna, Qazaxıstan, Türkiyə və Rumıniyanın ictimai xadim, yazıçı, publisist və jurnalistləri arasında beynəlxalq yazı müsabiqəsi elan etmişdir. Müsabiqə yazıları adı çəkilən ölkələrin aparıcı çap mətbuatında Heydər Əliyev şəxsiyyəti və onun beynəlxalq ictimai-siyasi fəaliyyəti, həmin ölkələrlə Azərbaycanın dostluq və əməkdaşlıq əlaqələrinin yaradılmasındakı rolu haqqında mövzuları əhatə etmişdir. Müsabiqə çərçivəsində yazılar 15 fevral - 31 mart 2013-cü il tarixədək həmin ölkələrdəki Azərbaycan səfirliklərinə təqdim edilmişdir. Hər bir ölkə üzrə ən yaxşı sayılan 1 məqalənin 3000 (üç min) avro məbləğində mükafatlandırılması nəzərdə tutulmuşdur.

Qaliblərin mükafatlandırılması mərasimi 07 may 2013-ci ildə Bakıda "Hilton" hotelində keçirilib. Toplantı iştirakçıları öncə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər. Dövlət himninin oxunmasından sonra Şuranın sifarişilə hazırlanmış ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən qısametrajlı film nümayiş etdirilmişdir. Mərasimdə çıxış edən Şura sədri Azay Quliyev Azərbaycanın dövlət müstəqilliyinin XX əsrin sonlarında qazanılması və böhranlı vəziyyətdən çıxarılması yolunda Heydər Əliyevin misilsiz xidmətlərindən danışaraq, onun fəaliyyət dövrünün miqyasına görə bənzərsizliyini və Azərbaycanın quruculuq salnaməsinin ən dolğun səhifələrinə çevrildiyini vurğulayıb.

Tədbirin aparıcısı yazıçı, millət vəkili, müsabiqə komissiyasının sədri Elmira Axundovada nitqində ümummilli liderin yaradıcı dühası və Azərbaycan, eləcə də dünya xalqları qarşısında xidmətləri haqqında geniş məlumat verib. E.Axundova müsabiqə komissiyasının üzvlərini və müsabiqənin qaliblərini toplantı iştirakçılarına təqdim edib. Qaliblər aşağıdakılardır:

1. Aleksandr Karavayev - Rusiya Federasiyası, "Heydər Əliyev Rusiya üçün: irsin aktuallığı müasirlik kontekstində" məqaləsi.
2. Alma Sağınğali – Qazaxıstan Respublikası, "Heydər Əliyev haqqında söz" məqaləsi.
3. Anastasiya Nikolayeva – Ukrayna Respublikası, "Heydər Əliyev - Azərbaycan xalqının iftixarı!" məqaləsi.
4. Gözdə Kılıç – Türkiyə Cümhuriyyəti, "Heydər Əliyev irsi: öz oyununu quran Azərbaycan" məqaləsi.

5. Horia Garbea – Rumıniya Respublikası, “Heydər Əliyev: alov insan!” məqaləsi.
6. Tamriko Şakaya – Gürcüstan Respublikası, “Heydər Əliyevlə mənim tanışlığım” məqaləsi.

Müsabiqə komissiyasının üzvləri hər bir qalib yazara Şuranın xatirə hədiyyələrini və pul mükafatını təqdim etdilər. Qalib gələn yazarlar çıxış edərək ölkələrində Heydər Əliyev irsinə olan maraqdan, xalqların onun titanik fəaliyyətinə bəslədiyi yüksək ehtiramdan bəhs etdilər. Bundan əlavə müsabiqəyə təqdim edilən digər dəyərli məqalələrində müəllifləri xüsusi diplomlarla təltif olundu. Onlar Rusiyadan Valeri Çalaqoniya, Aleksandr Budberq, Oleq Kuznetsov, Ukraynadan Arif Quliyev, Gürcüstandan Anar Tamı və Türkiyədən Əflatun Nemətzadə oldu.

Tədbirin sonunda çıxış edən Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dünyanın böyük coğrafiyasını əhatə edən Avropa və Asiya dövlətləri jurnalistlərinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyətini, onun xalqına, dünya xalqlarına verdiyi töhfələri qiymətləndirmələrinin təsadüfi olmadığını bildirdi. Heydər Əliyevin bir xalqın milli-mənəvi dəyərlərinin keşiyində duran, onu yaşadan bir lider olduğunu vurğulayan Ə.Həsənov Şərq və Qərb arasında Heydər Əliyevin iqtisadi, siyasi, sosial, mənəvi körpülərin salınmasında bəşəri fəaliyyət göstərdiyini diqqətə çəkdi.

## Beynəlxalq əlaqələr

- ### Görüşlər

Ötən illərdə olduğu kimi, 2013-ci ildə də Şura beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm vermiş və bu məqsədlə Şurada bir sıra beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlər keçirilmişdir.

- 28 mart 2013-ci ildə İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Rafael Harpazı,
- 03 may 2013-ci ildə Çexiyadan olan qonaqlar-Avropa Parlamentinin vitse-prezidenti Oldrich Vlasak və Avropa Parlamentinin üzvü, Avropa Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti Jan Zahradil,
- 23 aprel 2013-ci ildə Türkiyə Cümhuriyyətinin Yurtdışı Türkler və Akraba Toplulukları Başkanı Kemal Yurtnac və Türkiyənin Azərbaycandakı səfiri Alper Coşkun,
- 29 aprel 2013-ci ildə Amerika Birləşmiş Ştatlarının Şərq-Qərb İnstitutunun rəsmiləri,
- 03 may 2013-ci ildə ABŞ-ın Albani şəhərinin Nyu-York Dövlət Universitetinin böyük texniki məsləhətçisi, Beynəlxalq İnkişaf Mərkəzinin nümayəndəsi Sladjana Bijelic və Nyu-York Dövlət Universitetinin əlaqələndiricisi, Beynəlxalq İnkişaf Mərkəzinin nümayəndəsi Susan Crovdy,
- 17 may 2013-cü ildə Böyük Britaniyanın Birmingen Universtetinin Çin, Böyük Britaniya, Kanada, Hindistan, İndoneziya, Kosta-Rika və Bruneydən olan tələbələri,
- 24 may 2013-cü ildə “Şərq tərəfdaşlığı ölkələrinin gənclərinin beyin mərkəzi şəbəkəsi”nin nümayəndələri, “Beynəlxalq Gənc Peşəkarlar Fondu”nun direktoru Rosen Dimov, Avropa Alternativlərinin həmsədri Nokolo Milanes, Amerika Birləşmiş Ştatlarının Alman Marşal Fondunun Ankara direktoru Özgür Ünlühisarcıklı, “Gənclərin Avropada qərar qəbuletmədə iştirakı üçün gənc beyin mərkəzi lobbiləri”nin təsisçisi Andrea Gerosa, Şərq tərəfdaşlığı vətəndaş cəmiyyəti forumunun “insanlar arasında əlaqə” dördüncü işçi qrupunun əlaqələndiricisi Yaryna Borenko, Beynəlxalq işlər üçün Assosiasiyanın təmsilçisi Vladimira Votanova, “İqtisadiyyat və sosial araşdırmalar üzrə Qafqaz İnistitutu”nun icraçı direktoru Temur Tordinav,

- 05 iyun 2013-cü ildə ölkəmizdə səfərdə olan Harvard Universitetinin bir qrup tələbələri,
- 11 iyun 2013-cü ATƏT-in Bakı ofisinin rəhbərinin müavini xanım Monika Martinez,
- 18 iyun 2013-cü ildə Frankfurt Sülh Araşdırmalar İnstitutunun tədqiqatlar departamentinin rəhbəri Hans Joachim Spanger,
- 2 iyul 2013-cü ildə Şərq Tərəfdaşlığı ölkələrinin Regional Əməkdaşlığı Proqramının təmsilçiləri Erikas Yankauskas, Lyubov Polvada və Aleksey Sekarev,
- 4 iyul 2013-cü ildə ölkəmizdə sosial-iqtisadi fəaliyyət layihəsinin (SEDA) nümayəndələri Timoti Mədiqan, ölkəmizdə səfərdə olan Şərq-Qərb İdaəretmə İnstitutunun rəhbəri xanım Delina Fico,
- 16 avqust 2013-cü ildə ölkəmizin Belçika və Lüksemburqdakı səfiri və Avropa İttifaqındakı missiyamızın başçısı Fuad İsgəndərov,
- 1 noyabr 2013-cü ildə Belçika senatının sabiq sədri, fəxri spikeri Anne-Marie Lizinli,
- 12 dekabr 2013-cü ildə Yaponiyanın Azərbaycandakı səfirliyinin birinci müşaviri, iqtisadiyyat departamentinin rəhbəri Takao İmanisi və səfirliyin "Ot kökü" proqramının əlaqələndiricisi Fumiye Suqiyama,
- 13 noyabr 2012-ci ildə Şərq-Qərb İdarəetmə İnstitutu – Azərbaycanda Sosial-İqtisadi İnkişaf Proqramının (SEDA) nümayəndələri Timosi Madiqan, Ziba Quliyeva, Vaqif Həsənov və USAİD demokratiya və idarəçilik layihələrinin icrası üzrə mütəxəssisi Pərviz Musayev və digərləri Şuranın ofisində qəbul edilmişdir.

Bu görüşlərdə qonaqlara Şuranın yaranması, son illərdə görülmüş işlər, QHT-lərin proqram və layihələrinin dövlət tərəfindən maliyyələşdirilməsi haqqında ətraflı məlumat verilmiş, qarşılıqlı əməkdaşlıq barədə fikir mübadiləsi aparılmışdır.

## • Səfərlər

Şura sədrinin rəhbərliyilə Şuranın nümayəndə heyəti 6-9 mart 2013 - cü ildə Türkiyədə səfərdə olmuşdur. Səfər çərçivəsində nümayəndə heyəti Ankarada bir sıra dövlət və hökumət rəsmilərilə görüşlər keçirmişdir. Türkiyənin daxili işlər naziri Muammer Güler, Türkiyə Daxili İşlər Nazirliyinin müstəşarı Necmeddin Kılıc, Türkiyə Dərnəklər Dairəsinin sədri Mustafa Yardımçı, Türkiyə Cümhuriyyətinin Baş Nazirliyinin Vəqflər Baş müdiri Ertem Adnan, Türkiyə Cümhuriyyətinin Avropa Birliyi üzrə Nazirliyinin müstəşarı Haluk İlicak, Ölkəxarici Türklər və Əqrabalar başqanı Kamal Yurdçin, İnkişaf nazirinin müavini Mehmet Ceylanla görüşlər keçirilmişdir. Keçirilən görüşlərdə dövlət-QHT münasibətləri, QHT-lərin fəaliyyətinin hüquqi əsasları, QHT-lərə dövlət dəstəyinin forma və mexanizmləri haqqında geniş məlumatlar verilib. Eyni zamanda Türkiyə və Azərbaycan vətəndaş cəmiyyəti qurumları arasında əlaqələrin yaranmasında və inkişafında, təcrübə mübadiləsinin aparılmasında belə görüşlərin əhəmiyyəti vurğulanıb. Keçirilən bütün görüşlərdə qarşılıqlı əlaqələrə institusional xarakter vermək və bu əməkdaşlığı daha inkişaf etdirmək üçün birgə işçi qrupun yaradılması barədə razılıq əldə edilmişdir. Nümayəndə heyəti Ankarada ulu öndər Heydər Əliyev xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül çələngi qoymuşdur. Daha sonra nümayəndə heyəti Atatürk Anıt Qəbri və Atatürk Xatirə Muzeyini ziyarət etmişdir

29 aprel 2013-ci ildə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri qeyri-hökumət təşkilatları forumunun sədri Azay Quliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti toplantıda iştirak etmək üçün Ankarada səfərdə olmuşdur. Tədbirdə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri qeyri-hökumət təşkilatları forumunun regional əməkdaşlıqla bağlı təklifləri və fəaliyyət proqramı müzakirə edilmişdir.

07 iyun 2013-cü ildə Şura sədri Litvanın Avropa Birliyində sədrliyinə həsr olunmuş beynəlxalq konfransda iştirak etmək üçün Vilnüs şəhərində səfərdə olmuşdur. Konfransda çıxış edən Şura

sədri Azərbaycan-Avropa Birliyi münasibətləri, mövcud problemlər və gələcək əməkdaşlıq perspektivləri məsələlərindən danışıb. Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, həmçinin Moldovada və Gürcüstanda olan münaqişələrin Avropa ölkələrinin enerji təhlükəsizliyi və Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyi təhlükə altına atdığını və bu münaqişələrin Avropa İttifaqı tərəfindən həll olunması üçün səyləri artırmağının vacibliyini bildirmişdir.

15-17 dekabr 2013-cü ildə Şura sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Brüsselə səfərdə olub. Səfərin məqsədi Şuranın xarici QHT-lərə maliyyə yardımı çərçivəsində dəstək verdiyi "Avropa Yəhudi Birliyi" və "Ukrayna Yəhudilər Konqresi"nin "Azərbaycanda yəhudi həyatı və tolerantlıq mədəniyyəti" layihəsinin yekununa həsr olunan beynəlxalq konfransda iştirak etməkdir. Konfrans Avropa Yəhudi Parlamenti Baş Assambleyasının yaxından dəstəyi ilə Avropa Parlamentində təşkil olunmuşdur. Tədbirdə mövzuya aid qısa film nümayiş etdirilərək bir sıra məruzələr dinlənilmişdir. Səfər çərçivəsində nümayəndə heyəti Avropa Komissiyasının Vətəndaş Cəmiyyəti və Yerli Hakimiyyət İdarəsinin rəhbəri cənab Angelio Baglio ilə QHT sektorunun aktual mövzularına aid əməkdaşlıq məsələlərini müzakirə edib. Səfər zamanı Şuranın əməkdaşlıq etdiyi bir sıra beynəlxalq qeyri-hökumət təşkilatları ilə görüş keçirilib və icrada olan layihələr haqqında fikir mübadiləsi aparılıb.

- **Tərəfdaşlıq**

11 mart 2013-cü ildə Şuranın dəvətilə Rusiya Federasiyası İctimai Palatasının nümayəndə heyəti Bakıda 3 günlük səfərə olmuşdur. İctimai Palata katibinin birinci müavini Mixail Ostrovskinin rəhbərlik etdiyi nümayəndə heyəti martın 10-da Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət edib. Nümayəndə heyətini martın 11-də Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev qəbul etmişdir. Görüşdə Rusiya-Azərbaycan dostluğu və qarşılıqlı əməkdaşlığının indiki səviyyəsindən məmnunluq ifadə olunub, iki ölkənin vətəndaş cəmiyyəti institutları arasında əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır. Səfər proqramı çərçivəsində martın 12-də Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə Rusiya Federasiyasının İctimai Palatası arasında "Birgə Fəaliyyət və Əməkdaşlıq haqqında Memorandum" imzalanmışdır. Memorandum beynəlxalq arenada hər iki ölkənin vətəndaş cəmiyyəti institutlarının ikitərəfli və çoxtərəfli əsaslarla qurulmuş əməkdaşlığının və birgə fəaliyyətinin dərinləşdirilməsini, Azərbaycan, Rusiya və Türkiyənin qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq əlaqələrinin yaradılması və inkişaf etdirilməsini, Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi üçün regionun Azərbaycan və erməni icmaları arasında ictimai dialoq mühitinin yaradılmasını, Azərbaycan-Rusiya sərhədində hər iki ölkə vətəndaşların, həmçinin nəqliyyat vasitələrinin giriş-çıxışında yaranan problemlərin aradan qaldırılması üçün ictimai nəzarətin təşkilini, Rusiyada yaşayan azərbaycanlıların və Azərbaycanda yaşayan rusiyalıların cəmiyyətə inteqrasiyası ilə bağlı müxtəlif layihə və proqramların reallaşdırılmasını və sair vacib məsələləri özündə əks etdirir. Həmin gün Rusiya-Azərbaycan-Türkiyə vətəndaş cəmiyyəti institutlarının əməkdaşlığı üzrə üçtərəfli formatda QHT forumu keçirildi. Tərəflər Beynəlxalq Əməkdaşlıq Mərkəzinin sədri Azay Quliyev, Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov və Türkiyə millət vəkili, Eko-Avrasiya Sivil Toplum Quruluşunun sədri İsmayıl Safinin başçılıq etdiyi nümayəndə heyətlərilə təmsil olundular. Üç ölkə QHT-lərinin regional və beynəlxalq əməkdaşlığının təşkil edilməsi istiqamətində keçən səmərəli danışıqlar nəticəsində münasibətlərin qarşılıqlı ictimai fayda və milli maraqların müdafiəsi üzərində qurulmasının vacibliyi vurğulanmışdır. Əməkdaşlığın reallaşdırılması və təşkilati-texniki təminatı üçün konkret təkliflər paketinin işlənib hazırlanması barədə razılıq əldə olunmuşdur. Növbəti üçtərəfli görüşün Moskvada keçirilməsi təklif edilmişdir.

17 aprel 2013-ci ildə Şura ilə Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) arasında "Birgə Əməkdaşlıq haqqında Anlaşma Memorandum"u imzalanmışdır. Bu münasibətlə "Hilton" hotelində düzənlənmiş mərasimdə Şura üzvləri, USAİD əməkdaşları, milli QHT və KİV nümayəndələri iştirak etmişdir. Memorandum çərçivəsində nəzərdə tutulan əməkdaşlığın məqsədi ümumi və icma yönümlü regional sosial-iqtisadi inkişafda vətəndaş iştirakçılığının gücləndirilməsi, QHT-lərlə hökumət və özəl sektoru təmsil edən tərəfdaşların əlaqələndirilmiş şəbəkəsinin yaradılması vasitəsilə ölkədə vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə töhfə verməkdir. Memorandumun layihələrin Azərbaycanın Aran, Quba-Xaçmaz və Gəncə-Qazax regionlarında ümumilikdə 25-ə qədər rayonu əhatə etməsini nəzərdə tutur. Şura tərəfdən Memorandumu sədr Azay Quliyev, ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfdən qurumun rəhbərinin Avropa və Avrasiya üzrə müavini xanım Paige Aleksandr imzalamışdır.

İyunun 6-dan 8-dək Vilnüs şəhərində Demokratik Siyasət İnstitutu və Avropa Parlamentinin Xalq Partiyası siyasi qrupu ilə birgə Litvanın AB-nə sədrliyinə həsr edilən "Dəyərlər və siyasət: Avropanın xristian kökləri" adlı beynəlxalq konfransın təşkilinə Şura da dəstək vermişdir. Beynəlxalq tədbirdə Avropa Parlamentinin, Avronest PA üzvləri, nüfuzlu dövlət xadimləri və diplomatlar iştirak etmişlər.

18 oktyabr 2013-cü ildə Şura sədri Yeqor Serbakovun ölümündə təqsirləndirilərək şübhəli şəxs kimi həbs edilən Orxan Zeynalovla əlaqədar Rusiya Federasiyası Ictimai Palatasının sədri Yevgeni Velixova məktub göndərib. Məktubda məişət zəminində baş vermiş bu hadisənin milli müstəviyə cıxarılmasından, Orxan Zeynalovun hüquqlarının kobud şəkildə pozulmasından və zorakılıga məruz qalmasından ciddi narahatlıq ifadə olunub. Şura sədri rusiyali həmkarı akademik Velixovdan Şura ilə İctimai Palata arasında imzalanmış memorandumun 2.1.8-ci bəndinə əsasən bu məsələyə müdaxilə etmələrini və yaranmış narahatlığı aradan qaldırmaq üçün müvafiq tədbir görməsini xahiş edib. 16 avqust 2013-cü ildə İctimai Palatanın sədri Y. P. Velixov müraciəti cavablandırıb. O, cavab məktubunda bildirib ki, Rusiya ictimaiyyəti Orxan Zeynalovun həbsi ətrafında yaranmış vəziyyətdən çox narahatdır. Bununla əlaqədar İctimai Palata Rusiyanın Daxili İşlər Naziri V.A. Kolokolçevə və Baş Prakror Y.Y.Çaykaya müraciət edib. Y. Velixov qeyd edib ki, baş verən bu hadisə yalnız Azərbaycana yönəlik deyil, ümumilikdə Rusiyada olan miqrasiya probleminin təzahürüdür. İctimai Palata hazırda istintaqla bağlı vəziyyəti nəzarət altında saxladığını və prosesin gedişatı ilə bağlı Şuranı gələcəkdə də məlumatlandıracağını bildirib. 12 dekabr 2013-cü ildə Şura sədrinin 18 oktyabr 2013-cü ildə Orxan Zeynalovun həbsi ilə bağlı Rusiya Federasiyası Ictimai Palatasının sədrinə ünvanlandığı məktubda qaldırdığı məsələlərə Moskva şəhər prokrorluğu münasibətini açıqlayıb. Məktubda Şura sədrinin O.Zeynalovun həbs olunarkən zorakılığa məruz qalması ilə bağlı narahatlığına cavab olaraq bununla bağlı oktyabrın 24-də məhkəmə tibbi ekspertizasının təyin olunduğu, noyabrın 11-də isə onun yekun nəticəsinin açıqlanma müddətinin daha bir ay uzadıldığı qeyd edilir. Prokurorluq yalnız tibbi ekspertizanın yekun rəyindən sonra həbs edilərkən soydaşımıza qarşı hər hansı qanun pozuntusu hərəkətinin yol verilməsi məsələsinə hüquqi cəhətdən tamlıqla aydınlıq gətiriləcəyini bildirib. Moskva şəhər prokrorluğu O.Zeynalovun həbsi ətrafında mətbuatda gedən iddiaların onun həbs olunarkən zorakılığa məruz qalması ilə bağlı hər hansı cinayət işi açmağa yetərli olmadığınıda vurğulayıb.

4 dekabr 2013-cü ildə Şuranın maliyyə dəstəyi ilə Litvanın "Public Agency Geopolitical Studies" (Geosiyasi Tədqiqatlar Mərkəzi) təşkilatı Xocalı soyqırımının ildönümünə aid yazı müsabiqəsi elan edib. Litvalı siyasətçilər, alimlər, tarixçilər, ictimai xadimlər Xocalı soyqırımına, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunan ən yaxşı tədqiqat işlərini müsabiqəyə təqdim edəcəklər. Müsabiqənin əsas məqsədi Xocalı soyqırımı və Qarabağ həqiqətləri haqqında Litva cəmiyyətində düzgün təsəvvürlər formalaşdırmaq və

münaqişənin həllinə töhfə verməkdən ibarətdir. Təşkilat ən yaxşı tədqiqat məqaləsinə görə 7 müəllifi qonorarla mükafatlandıracaq. Daha sonra müsabiqənin qalibləri mövzu ilə bağlı Azərbaycanda keçiriləcək dəyirmi masada iştirak edəcək və qalib gəlmiş məqalələr kitab şəklində nəşr olunacaqdır.

## Yekun

2013-cü ildə Şura Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasından irəli gələn məsələlərin həlli istiqamətində fəaliyyət göstərməklə ölkəmizdə vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işinə öz töhfəsini vermişdir. Növbəti illərdə Şura, milli QHT-lərin idarəçilik təcrübəsinin zənginləşdirilməsini, beynəlxalq tərəfdaşlarla birgə əməkdaşlığın davam etdirilməsini, habelə QHT fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün hazırlanmış QHT normalarının təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin gücləndirilməsi üçün milli strategiyanın və fəaliyyət planının hazırlanması və digər bu kimi vacib məsələlərin reallaşdırılmasını nəzərdə tutur.